## Banklararası hesablaşmalarda IBAN strukturlu hesablardan istifadə olunacaq

*Bununla əlaqədar maliyyə institutlarının müxbir və submüxbir hesablarında dəyişiklik edilmişdir*

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən Standart Bank hesab nömrələrinin (İBAN) tətbiqi ilə əlaqədar milli ödəniş sisteminin iştirakçısı olan Maliyyə institutlarının müxbir və submüxbir hesablarında dəyişiklik edilmişdir. 12 mart 2012-ci il tarixdən banklararası hesablaşmalar sistemində Maliyyə institutları üçün ylnız IBAN strukturlu hesablardan istifadə olunur.

IBAN (International Bank Account Number) müştərinin standartlaşdırılmış formatda beynəlxalq bank hesab nömrəsidir: hesabın elektron eyniləşdirilməsini həyata keçirməyə imkan verir. Əvvəllər beynəlxalq ödəniş həyata keçirən alıcının hesab nömrəsi kimi Avropa İttifaqına üzv olan dövlətlər arasında köçürmələrin sürətinin və keyfiyyətinin yüksəldilməsi üçün istifadə olunan IBAN indi Avropa Birliyinə daxil olmayan ölkələrdə də istifadə edilir. Azərbaycanda da artıq standart bank hesab nömrəsindən istifadə edilməsi üçün qaydalar təsdiq olunub. IBAN ölkədaxili və ölkədənkənar banklararası hesablaşmalarda iştirak edən bütün bank hesablarına tətbiq ediləcək. Ölkədaxili və ölkədənkənar köçürmələr üçün nəzərdə tutulan ödəniş sənədlərində ödəyicinin IBAN-ı düzgün göstərilmədikdə isə sənəd icraya qəbul edilməyəcək. IBAN kodlarının tətbiqi ödəniş sistemlərinin proqram məhsullarının təkmilləşdirilməsini tələb edir. Belə ki, ödənişlər avtomatik şəkildə işləndiyi üçün ödəniş proqramı IBAN-da ölkənin kodunu, eləcə də müştərinin hesab nömrəsini tanımalıdır. Buna görə IBAN-dan istifadə edən ölkələrin mövcud milli standartları onların eyniləşdirilməsinin sadələşdirilməsi istiqamətində bir sıra dəyişikliklərə məruz qalır.

IBAN-dan istifadə ödənişlərin işlənməsi prosesini bütünlüklə avtomatlaşdırmağa, hesablaşmaların həyata keçirilməsi zamanı vasitəçi bankların xidmətlərindən imtina etməyə imkan yaradır ki, bu da nəticədə pulun daha tez hərəkəti üçün, gələcəkdə isə beynəlxalq ödənişlərin həyata keçirilməsinə xərclərin azalması üçün zəmin yaradır.

Beləliklə, bank sektorunun IBAN sistemindən tam hüquqlu istifadə edilməsi bank hesab nömrəsinin avtomatik eyniləşdirilməsini yaratmağa və bank idenfikatorlarının leqallaşdırılmasının vahid şəklə salınmasına imkan yaradacaq.

Standart bank hesab nömrələrinin tətbiqi ilə əlaqədar Dövlət Xəzinədarlıq orqanlarında olan vergi və rüsumların köçürülməli olduğu xəzinə hesablarının rekvizitləri

***Dövlət Xəzinədarlığı Agentliyi***
***Kod 210005***
***Müxbir hesab: AZ41NABZ0100000000003944***
***SWIFT CTREAZ 22***

***Bakı Şəhər Vergilər Departamenti***
***VÖEN: 1400303751***
***Hesablaşma hesabı: 2117131***

***Vahid ƏDV Depoziti Hesabının rekvizitləri***
***Dövlət Xəzinədarlığı Agentliyi***
***Kod: 210027***
***VÖEN: 1401555071***
***Müxbir hesab: AZ07NABZ01360100000000004944***
***SWIFT BIK CTREAZ24***
***Hesab 14001***

Arzu İBRAHİMOVA